AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Sosial elmlər və psixologiya fakültəsi

Fəlsəfə kafedrası

İPFS – B01

# “TARİXİ ŞÜUR VƏ TARİXİ İDRAK” fənninin

# P R O Q R A M I

(bakalavr pilləsi üçün)

İxtisas – 050202 – Fəlsəfə

Bakı – 2020

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

Sosial elmlər və psixologiya fakültəsi

WPS Office ile Düzenle

Fəlsəfə kafedrası

İPFS – B01

“TARİXİ ŞÜUR VƏ TARİXİ İDRAK” fənninin

P R O Q R A M I

(bakalavr pilləsi üçün)

İxtisas – 050202 – Fəlsəfə

Bakı Dövlət Universiteti rektorunun
17.02.2020-ci il tarixli R/25 saylı əmri
ilə nəşr hüququ verilmişdir

Bakı – 2020

Tərtib edən: fəlsəfə elmləri doktoru,
Professor Zeynəddin Camal oğlu Hacıyev

Elmi redaktor: fəlsəfə üzrə fəlsəfə doktoru,
Dosent Bilal Xudabaxış oğlu Əlizadə

Rəyçilər: fəlsəfə üzrə fəlsəfə doktoru,
Nəzakət İsfəndiyar qızı Kərimova
fəlsəfə üzrə fəlsəfə doktoru,

WPS Office ile Düzenle

Nərgiz Həmid qızı Məcidova

## İzahat vərəqi

### Fənnin mənimsənilməsi məqsədləri

Tarixi şüur və tarixi idrak fənninin öyrənilməsi bakalavr pilləsində təhsil alan tələblərdə aşağıdakı istiqamətlər üzrə bilik, qabiliyyət və bacarıqları formalaşdırmaq məqsədi güdür.

a) Tarixi şüur və tarixi idrak problemlərinin mənimsənilməsinin nəzəri əsasları və əsas paradiqmalarına yiyələnməsinə nail olmaq;

b) Tarixi şüur və tarixi idrak haqqında biliklərin, tələblərin elmi dünyagörüşünə qovuşmasını və onu zənginləşdirməsini təmin etmək;

c) Tarixi şüur və tarixi idrak haqqında biliklərin Azərbaycan xalqının milli mənlik şüurunun formalaşmasında yeri və rolunun açılmasına nail olmaq.

### Digər fənlər strukturunda fənnin yeri

Bu fənn bakalavr pilləsində seçmə ixtisas fənlər qrupuna aiddir. O öz məzmunu etibarilə humanitar, sosial və iqtisadi bloklara aid fənlər ilə sıx əlaqədədir. Buna görə də sözügedən fənnin öyrənilməsində yuxarıda qeyd olunan sahələrdə qazanılmış biliklər mühüm rol oynayır.

WPS Office ile Düzenle

**Fənnin mənimsənilməsinin nəticələri**

Fənnin öyrənilməsi prosesində tələbələr müvafiq informasiya toplamalı, onu təhlil etməli və elmi problemləri düzgün ifadə etməyi bacarmalıdır. “Tarixi şüur və tarixi idrak” fənninin mənimsənilməsi nəticəsində tələbə aşağıdakıları bilməlidir:

- Tarixi şüurun və tarixi idrak anlayışlarının mahiyyəti, onlar arasındakı münasibət;
- Tarixi şüurun və tarixi idrakın formalaşması mərhələləri, onların xalqın mənlik şüuru ilə əlaqələri;
- Tarixi idrakın strukturu, ona sistemli və varislik mövqeyindən yanaşma;
- Tarixi idrakda məkan, zaman, səbəbiyyət, zərurət və təsadüf anlayışlarının mahiyyəti;
- Tarixi idrakda mənbələrin və tarixi faktların yeri və rolu;
- Tarixin empirik və konseptual mərhələlərdə dərk olunması, tarixisizmin mahiyyəti;
- Tarixi idrakın dəyərləndirici rolu, sosial yaddaş, sosial tərbiyə, estetik və proqnozlaşdırıcı funksiyalarının bu gün üçün əhəmiyyəti.

**Modulun (fənnin) strukturu və məzmunu**

Fənnin öyrənilməsinə 60 saat vaxt (30 – mühazirə və 30 seminar məşğələsi) ayrılmışdır. Fənnin məzmunu 15 mövzuda açılır. Fəlsəfə üzrə hərtərəfli biliyə malik mütəxəssislərin yetişdirilməsində “Tarixi şüur və tarixi idrak” fənninin tədris edilməsinin zəruriliyi özünü tamamilə doğruldur.

**Fənnin əhəmiyyəti haqqında**

Fəlsəfə ixtisasında təhsil alan tələbələrdə hərtərəfli elmi dünyagörüşünün formalaşmasında  bu fənn müstəsna əhəmiyyətə malikdir. O, tələbələrdə tarixi şüurun və tarixi idrakın statusu, daxili strukturu, məzmunu haqqında adekvat informasiya verir. Tələbələrdə varislik prinsipi, tarixi prosesdə məkan və zamanın, səbəbiyyətin, zərurət və təsadüfün roluna dair həqiqi elmi təsəvvürlərin formalaşmasını stimullaşdırır. Bu fənnin öyrəndiyi tarixi idrakda mənbələr və faktların rolu, tarixin empirik və nəzəri səviyyələrdə dərk olunması, tarixism, onun təkamülü kimi problemlər ümumilikdə fəlsəfə, xüsusilə də sosial fəlsəfə sahəsində olan bilik ehtiyatlarını artırır.

Fənn tələbə gənclərin milli mənlik şüurunun formalaşmasında, tarixi keçmişə hörmət və qayğı ilə yanaşmasında müstəsna əhəmiyyət kəsb edir.

**Fənnin mənimsənilməsi zamanı tələbələr bilməlidir.**

- Tarixi şüur və tarixi idrak fənninin predmetini və elmlər sistemində yerini;
- Tarixi şüurun formalaşması, strukturu və xalqın mənlik şüuru ilə əlaqəsini;
- Tarixi idrakın xüsusiyyətlərini, strukturunu, burada sistemli yanaşma və varislik prinsiplərini;
- Tarixi idrakda məkan, zaman, səbəbiyyət, zərurət və təsadüf əlaqələrinin mahiyyətini;
- Tarixi idrakda mənbələrin və faktların rolunu;
- Tarixi idrakın empirik, nəzərini dərkini, onun funksiyalarını.

WPS Office ile Düzenle

**Fənnin mənimsənilməsi zamanı tələbələr bacarmalıdır.**

- Tarixi şüur və tarixi idrakın digər fənlər ilə əlaqələrini və spesifikliyini;
- Tarixi reallıq, tarixi şüur və milli mənlik .şüurunun münasibətlərini açmağı;
- Tarixi idrakda varislik prinsipinin bu gün üçün elmi və praktiki əhəmiyyətini;
- Tarixi idrakın funksiyalarını müasirlik mövqeyindən mənalandırmaq.

**Fənn üzrə dərs saatlarının bölgüsü**

| | MÖVZULAR | MÜHAZİRƏ | MƏŞĞƏLƏ |
|---|---|---|---|
| 1 | Tarixi şüur və tarixi idrak fənninin predmeti və metodoloji əsasları | 2 saat | 2 saat |
| 2 | Tarixi şüurun statusu və formalaşması mərhələləri | 2 saat | 2 saat |
| 3 | Tarixi reallıq, tarixi şüur və xalqın mənlik şüuru | 2 saat | 2 saat |
| 4 | Tarixi idrakın xüsusiyyətləri. Tarixi idrakda həqiqət problemi | 2 saat | 2 saat |
| 5 | Tarixi idrakın strukturu | 2 saat | 2 saat |
| 6 | Tarixi idrakda sistemli yanaşma | 2 saat | 2 saat |
| 7 | Tarixi idrakda varislik prinsipi | 2 saat | 2 saat |
| 8 | Tarixi idrakda məkan və zaman | 2 saat | 2 saat |
| 9 | Tarixi idrakda səbəbiyyət, zərurət və təsadüf | 2 saat | 2 saat |
| 10 | Tarixi idrakda mənbələrin yeri və rolu | 2 saat | 2 saat |
| 11 | Tarixi fakt və tarixi idrak | 2 saat | 2 saat |
| 12 | Tarixin empirik dərk olunması | 2 saat | 2 saat |
| 13 | Konseptuallaşma və tarixisizm | 2 saat | 2 saat |
| 14 | Tarixi idrakın funksiyaları | 4 saat | 4 saat |
| Cəmi: 60 saat | | 30 saat | 30 saat |

WPS Office ile Düzenle

**I mövzu. Tarixi şüur və tarixi idrak fənninin predmeti və metodoloji əsasları (2 saat).**

Tarixi şüuru və tarixi idrakı öyrənməyin əhəmiyyəti. Tarixi keçmişin dərki bu günki həyatı səmərəli təşkil etməyin və gələcəyi düzgün görməyinə zəruri şərti kimi. Tarixi yanaşma idrakın və sosial praktikanın ayrılmaz tərəfidir.

“Tarixi şüur” və tarixi idrak, sosiohumanitar biliyin spesifik növü kimi. Tarixi reallığın öyrənilməsi tarixi idrakın əsas obyektidir. Tarixi şüur və tarixi idrak anlayışlarının münasibəti. Keçmişin “müsbət” və “mənfi” dərslərinə bərtərəfedici münasibət. Tarixi təcrübə (tarixi şüur) ilə aktual (hazırki) təcrübənin vəhdəti. Tarixi şüurun formalaşması amilləri. Tarixi şüur və ictimai şüur.

Tarixi idrakın metodoloji əsasları problemi. Cəmiyyətin tarixinin izahına müxtəlif yanaşmalar. Tarixi bilikləri elmi sistemə çevirmək zərurəti. Tarixin materialist anlaşılması, tarixi idrakın ilkin metodoloji əsasıdır. Cəmiyyətin maddi (bazis) və mənəvi həyati (üstqrumu) arasında münasibətlərin düzgün izahı, tarixi idrakın mahiyyətini açan başlıca prinsip kimi. Tarixi prosesdə zərurət ilə təsadüfün rolunu və nisbətini öyrənməyin metodoloji əhəmiyyəti. Tarixi reallığın anlaşılmasında maraqların və dəyərlərin rolu. [1], [2], [3], [4], [5], [6], [7], [8].

**II mövzu. Tarixi şüurun statusu və formalaşması mərhələləri (2 saat).**

Tarixi şüur ictimai şüurun spesifik struktur elementi kimi. “Tarix” anlayışının müxtəlif mənaları. Tarix hər hansı obyektin keçdiyi yolu ifadə edir. Tarix ictimai həyatın inkişafı kimi. Tarixə cəmiyyətin yaddaşı, onun keçdiyi mərhələlərin insanların beynində inikası (tarixi şüur) kimi yanaşılması. Tarixi şüur keçmişin dərk olunmasının müxtəlif formalarının məcmusudur.

Tarixi şüurun formalaşması mərhələləri. Tarixi şüurun yaranmasının ibtidai, kortəbii mərhələsi və onun səciyyəvi cəhətləri. Xüsusi tarixi əsərlərin yaradılması mərhələsi. Onun sistemliyi, kütləviliyi və müyəssərliyi. Ikinci mərhələnin səciyyəvi cəhətləri, üstünlükləri və antinomiyaları.

Tarixi şüurun elmi mərhələsi. Ayrı-ayrı xalqların tarixinin və ümumdünya tarixinin sistemli və xronoloji ardıcıllıqla inikas etdirilməsi. Tarixi prosesin təsvirindən onun izahına keçilməsi. Elmi tarixi şüurun əsas əlamətləri: Müəyyən tarixi məsələlərin qoyuluşu, humanist xarakter daşıması, rasional təbiətə malik olması, xalqın mənlik şüuru ilə sıx əlaqəliliyi.

Tarixin elmi statusu ətrafında gedən mübahisələr. Tarixi şüuru elmilikdən kənar hesab edən mövqeyin əsassızlığı. [1], [2], [3], [4], [5], [6], [9].

WPS Office ile Düzenle

## III mövzu. Tarixi reallıq, tarixi şüur və xalqın mənlik şüuru (2 saat).

Tarixi reallıq anlayışı. Tarixi reallıq tarixi idrakın predmeti kimi. Tarixi reallığın tarixi idrakda inikasının xarakteri. Tarixi şüur reallığın abstraksiyalar, qanunlar və kateqoriyalarda inikasıdır. Onun şərti, nisbi və təxmini tərəfləri.

Tarixi reallığın elmi anlamında təbiətə münasibət problemi. Tarixi prosesi biolojiləşdirən və psixolojiləşdirən baxışlar. Tarixə obyektiv real proses kimi yanaşılması. Tarixi dövrlər arasında varislik (bərtərəf etmə) əlaqələri. Tarixin təbii-tarixi qanunauyğun sistem kimi anlaşılması. Keçmişi dərk etmənin mümkünlüyü və mürəkkəbliyi. Tarixi "fikirlərin ardıcıllığı" kimi mənalandırmağın nöqsanlığı.

Tarixi reallığın səciyyələndirilməsində "varlıq" və "mövcudluq" anlayışlarının rolu. Varlıq keçmiş, indi və gələcəyin vəhdəti kimi. Mövcudluq yalnız aktual olanın (indinin) ifadəsidir.

Keçmişin indiki dövrdə davamı məsələsi. Keçmiş ilə əlaqələrin vasitəli formaları. Tarixi reallığın müasir dövrdə iştirakının bilavasitə formaları.

Tarixi şüur ilə xalqın mənlik şüurunun vəhdəti. Mənlik şüurun anlayışının mahiyyəti, ona tarixi səpkidə yanaşmağın zəruriliyi. Müasir dövrdə tarixi şüurun mənlik şüuruna təsirinin güclənməsi. [1], [2], [3], [4], [5], [6], [10].

## IV mövzu. Tarixi idrakın xüsusiyyətləri. Tarixi idrakda həqiqət problemi (2 saat).

Tarixi idrak tarixi şüurun nisbi müstəqil, rasional fəaliyyət sahəsi kimi. Tarixi idrakın səciyyəvi cəhətləri. Tarixi idrakın öyrəndiyi obyektlərin keçmişə aid olması. Onların müəyyən zaman kəsiyində sahmanlılığı. Tarixi prosesin varislik əlaqələri. Tarixi idrakda kauzallıq (səbəbiyyət) əlaqələrinin aşkara çıxarılması, burada nəticədən səbəbə doğru getməyin mümkünlüyü. Tarixi idrakda təkrarlanmanın mahiyyəti, onu təhrif edən baxışlar. Tarixi idrakda ümumiləşdirmələri inkar edən mövqenin əsassızlığı. Tarixi idrakda təkcə (fərdi) ilə ümuminin əlaqələrini düzgün anlamağın zəruriliyi. Keçmişin indini real imkanlar, meyillər və potensial vəziyyətlər formasında əhatə etməsi. Indi keçmişin bərtərəf olunmuş davamı kimi.

Tarixi idrakda həqiqət problemi. Sosiohumanitar bilikdə obyekt-subyekt münasibətlərinin özünəməxsusluğu. Tarixi həqiqətin obyektinin mürəkkəb xarakteri. Tarixin subyektlərinin ayrılmaz əlaqəliliyi. Tarixi həqiqətin dinamikliyi. Tarixi idrakın praktiki fəaliyyət ilə bağlılığı. "Tənqidi tarix fəlsəfəsi"ndə həqiqətin izahının məhdudluğu. Tarixi idrakda həqiqətin meyarı. [1], [2], [3], [4], [5], [6], [11], [12].

## V mövzu. Tarixi idrakın strukturu (2 saat).

Tarixi idrakın strukturunun mürəkkəb xarakteri. Tarixi biliyin təsnifatı və onun əsas cəhətləri. Tarixi idrakda tipologiya, ona müxtəlif yanaşmalar. Təsnifat və tipologiya anlayışlarının münasibəti. Tipologiyanın üstünlükləri.

Tarix fəlsəfəsi və tarixşünaslıq. Tarixi idrakın inkişafı mexanizmi. Obyekt, problem və metod, tarixi biliyin tipologiyasının əsasları kimi. Tarixi mənbələrdəki informasiyanın açıqlanması məsələsi. Empirik tarixşünaslıq anlayışının

WPS Office ile Düzenle

mahiyyəti. “Birinci” və “ikinci” mətnlər, onların tarixi idrakda rolu. Tarixi idrakın strukturunda metodlar, onların ikikomponentli tərkibi: Tarixi idrakın strukturunda tədqiqatın problemi və idraki vəzifələrin yeri. Tarixi maraqların və tədqiqatçının şəxsi keyfiyyətlərinin idrak vəzifələrnə təsiri.

Tarixi tədqiqat prosesinin strukturu. Tədqiqatda idrakı vəzifələr ilə predmet-praktiki tərəflərin münasibəti.

Tarixi biliyin idraki statusu. XIX əsrə qədər onun anlaşılması. Tarix elminin yeni məna və məzmun kəsb etməsi, onu şərtləndirən amillər. XIX əsrdə cəmiyyət haqqında biliklərə diqqətin artması. [1], [2], [3], [4], [5], [6], [12], [13].

**VI mövzu. Tarixi idrakda sistemli yanaşma (2 saat).**

Tarixi prosesin dərkinə sistemli yanaşmanın zəruriliyi. Tarixi reallığın sistemli öyrənilməsi şərtləri. Sistem metodunun müasir anlamı. Tarixi proses dinamik sistem kimi və onun əsas cəhətləri.

Tarixi idrakda konseptual sintaqma anlayışı. Sintaqmanın ekstrapolyasiyası və onun törətdiyi çətinliklər. Sintaqmanın yenidən öz əvvəlki vəziyyətinə qaytarılmasında onun məzmununun təkmilləşməsi. Ənənəvi sintaqmanın transformasiyası məqamı.

Tarixi idrakda tətbiq olunan əsas sistem strukturlar. Tarixilik xassəsi və onun zamanla münasibəti. Keçmişdə baş verən proseslərin sahmanlı sıralanması. Tarixi idrakda “uzun sıra ardıcıllığı” anlayışının yaranması. Müxtəlif hadisələrin sıra ardıcıllıqlarının müqayisəsi. Hadisələrin “uzun” ardıcıllığının strukturuna səbəb-nəticə münasibətlərinin daxil edilməsi. Tarixi idrakda məqsədli determinasiya münasibətləri. Tarixi hadisələrin qarşılıqlı təsvirində ümumsosial münasibətlərin spesifik yeri. Tarixi və sosioloji biliyin vəhdəti. [1], [2], [3], [4], [5], [6], [14], [15].

**VII mövzu. Tarixi idrakda varislik prinsipi (2 saat).**

Varislik ictimai inkişafda yeni ilə köhnənin əlaqəsi kimi. Tarixi prosesdə varisliyin özünəməxsusluğu və onu şərtləndirən amillər. Tarix ardıcıllıqla gələn və biri digərini tamamlayan hadisə və prosesləin məcmusudur. Burada real şəraitindən asılı olaraq fəaliyyət göstərən şüurlu insanların əhatə olunması. Tarix, hadisələrin bir-birini əvəzləməsi (izləməsi), qarşılıqlı şərtlənməsi və  və asılılığını ifadə edən obyektiv prosesdir. İsanların öz tarixini boş yerdə deyil, keçmişdən miras qalan ictimai formalara arxalanmaqla yaratması.

Tarixi idrakda keçmişin bərpa olunması problemi. Burada obyekt – subyekt əlaqələrinin vasitəliliyi və bilavasitəliliyi. Idrak subyektinin tarixi prosesə müdaxiləsinin qeyri-mümkünlüyü. Tarixçinin fəallığının əsas istiqamətləri.

Tarixi varisliyin əsas formaları. Ümumsosioloji qanunlar, keçmişlə indinin ən mühüm əlaqə forması kimi. Varislikdə maddi fəaliyyət məhsullarının ötürülməsinin rolu. Mənəvi sərvətlərin varisliyinin özünəməxsusluğu. Keçmiş mədəni irsə tənqidi yanaşmanın zəruriliyi.

Tarixi idrakda varisliyin çətinlikləri. Eyni bir tarixi dövrə aid məxəzlərin və mənbələrin müxtəlifliyi. Empirik materialların azlığı və onları sistemləşdirməyin mürəkkəbliyi. Varislik və sinfi maraqlar. [1], [2], [3], [4], [5], [6], [16].

WPS Office ile Düzenle

## VIII mövzu. Tarixi idrakda məkan və zaman (2 saat).

Tarixi idrakda məkan probleminin əhəmiyyəti. Vahid tarixi məkanın formalaşması prosesini öyrənməyin zəruriliyi. Ilk tarixi dövrlərdə məkanın dağınıq və parçalanmış vəziyyəti. Quldarlıq və feodalizm cəmiyyətlərində tarixi məkanın təşəkkürlü yolunda atılan addımlar. Kapitalizmdə vahid dünya tarixi məkanın yaranması.

K.Yaspers vahid tarixi məkan və qlobal vəhdət haqqında. Onun təlimində qlobal vəhdət motivlərinin, yollarının müxtəlifliyi və nəticələrinin mənalandırılması.

Tarixi məkanın vahid iqtisadi və siyasi məkan ilə münasibəti. Ölkələrin iqtisadi və siyasi inkişafının bərabərliyi və onun törətdiyi nəticələr.

Tarixi idrakda zaman anlayışı. Sosial zamanın ontoloji səpkisi. K.Yaspersin "ox dövrü" təlimi. Tarixi idrakda zaman haqqında təsəvvürlərin təkamülü. Sosial zamanın özünəməxsusluğu, burada obyektiv və subyektiv tərəflər.

Annallar məktəbi nümayəndələrinin tarixi zaman təlimi. "Süräklilik dialektikası" anlayışı.

Tarixi zaman, cəmiyyətin inkişaf qanunlarını və mərhələlərini müəyyənləşdirməyin əsası kimi.

Tarixi zaman və epoxanın (dövrün) münasibəti. Bəşəriyyətin müasir epoxası və onun səciyyəvi cəhətləri. [1], [2], [3], [4], [5], [6], [17].

## IX mövzu. Tarixi idrakda səbəbiyyət, zərurət və təsadüf (2 saat).

Tarixi prosesdə səbəbiyyət və qanunauyğunluq. Tarixi reallığın dərkində səbəbiyyət əlaqələrini öyrənməyin mühüm rolu. Ictimai prosesdə səbəbiyyətin çoxsəviyyəli xarakteri. Ümumi təbii -tarixi səbəbiyyət. Səbəbiyyətin konkret – tarixi səviyyəsinin spesifikliyi və onu şərtləndirən amillər. Sosial – tarixi determinizmin çoxmənalılığı, çoxvariantlılığı və alternativliyi. Tarixi səbəbiyyət ilə ehtimalın (statistik qanunların) münasibəti.

Tarixi zərurət anlayışının mahiyyəti. Tarixi labüdlük, tələbat və problem zərurətin ifadə formaları kimi. Tarixi prosesdə zərurət ilə təsadüfün münasibəti. Tarixi təsadüf, zərurətin ifadə və tamamlanma formasıdır. Varlığın müxtəlif formalarında zərurət – təsadüf münasibətlərinin dəyişilməsi. Tarixi prosesdə konkret şəraitdə və təsadüfün konkret şəraitdən asılılığı. Tarixi inkişafda təsadüflərin rolunun artması meyli.

Tarixdə zərurət ilə təsadüfün münasibətlərinin fatalist və volyuntarist izahının əsassızlığı. [1], [2], [3], [4], [5], [6], [9].

## X mövzu. Tarixi idrakda mənbələrin yeri və rolu (2 saat).

Mənbə tarixi reallığı dərk etməyin mühüm vasitəsi kimi. Tarixi mənbə anlayışına müxtəlif yanaşmalar. Tarixi mənbələri fikirlər, hisslər və rəylər kimi götürənlər. Mənbələri keçmişdən qalan maddi əşyalar hesab edənlər. Mənbələr insanların keçmiş fəaliyyəti nəticələri, idraka kömək edən digər vasitələr və informasiya daşıyıcılarıdır. Tarixi mənbələrin keçmişin bir hissəsi kimi anlaşılması. Tarixi mənbələrə keçmiş haqqında bütün məlumatlar yığını kimi yanaşılması.

Tarixi mənbələrin əsas cəhətləri: tarixi reallığın əks etdirilməsi (təxminiliyi və ziddiyyətliliyi ilə birlikdə); tarixi obyektivlik ilə maraqların əlaqəliliyi; qeyri-funksional və

WPS Office ile Düzenle

funksional inikas formalarının vəhdəti; keçmişin mahiyyəti və qanunauyğunluqlarının əks olunması: Tarixi mənbələrin roluna görə təsnifatı; kütləvi və miqyasda və geniş istifadə olunan mənbələr; əşyavi xarakterli mənbələr; etnoqrafik məlumatlar; folklor materialları; linqivistik mənbələr; kino; foto sənədləri.

Tarixi mənbələrdən tənqidi (zahiri və daxili) istifadə olunmasının zəruriliyi. [1], [2], [3], [4], [5], [6], [16].

**XI mövzu. Tarixi fakt və tarixi idrak (2 saat).**

Tarixi fakt anlayışı. Tarixi faktın izahının müxtəlifliliyi. Fakt gerçəkliyin obyektiv hadisə, situasiya və prosesi kimi. Fakta reallıq haqqında xüsusi bilik kimi yanaşılması. Faktı həqiqətin sinonimi kimi qəbul edənlər.

Tarixi faktın tarixçi tərəfindən quraşdırıldığı fikrinin müsbət və mənfi tərəfi. Tarixi faktın tarixi sənədlər əsasında formalaşdırılan olması fikri. Y.Qoldstayının tarixi fakt təlimi. Tarixi fakta keçmişi hissi və rasional tərəflərin sintezini ifadə edən bilik kimi yanaşılması.

Tarixi faktların epistemoloji tipologiyası: Eksistensial və kvalifikasiyalaşdırıcı faktlar (onların daxili növləri). Miqdar bildirən faktlar. Temporal və lokoqrafik faktların mahiyyəti.

Tarixi faktların metodoloji tipologiyası: tipikləşdirmə üsulu ilə seçilən faktlar, analitik faktlar (göstəricilərin müqayisəsi); konfiqurativ faktlar; statistik faktlar.

Tarixi faktlardan istifadə olunmasına verilən əsas tələblər: tarixi fakta təhlili yanaşma. Hər bir tarixi faktın öz xüsusi yerini düzgün müəyyənləşdirmə. Tarixi faktın digərləri ilə əlaqəli götürülməsi. Tarixi idrakda faktın özünəməxsusluğunun (təbiielmi idrakla müqayisədə) nəzərə alınması. [1], [2], [3], [4], [5], [6], [18].

**XII mövzu. Tarixin empirik dərk olunması (2 saat).**

Tarixi idrakda empirik (təsviri) yanaşmanın mahiyyyəti, müasir tarixi idrakda empirik və nəzəri biliyin vəhdəti. Tarixi təsvirin mahiyyəti və çətinlikləri. Elmi biliyin strukturunda təsvirin spesifikliyi və funksiyaalrı. Tarixi təsvirin idraki rolu və özünəməxsusluğu (təbiətşünaslıq ilə müqayisədə). Tarixi idrakda empirik və nəzəri biliyin müqayisəsi. Təsvir sistemli obyektin tərkibinin cümlələr məcmusu və terminlərlə ifadə olunması kimi. Təsvir dili cümlələrinə verilən tələblər: obyektin tərəfini fərqləndirməyə və hüdudlarını müəyyənləşdirməyə imkan verilməsi. Obyektin daxili münasibətləri və çevrilmələrinin müəyyənləşdirilə bilməsi: təsvirin bütöv, qismən və fərdi növləri. Tarixi təsvirlərdə vaxt amilinin xüsusi rolu.

Təsvirin idrak sistemində əsas funksiyaları. Sistemlərin daxili strukturunu (yarımsistemlərini və elementlərini) seçib ayırmağın, onların fərqlərini aşkara çıxarmağın zəruriliyi. Təsvirin səviyyəsini düzgün müəyyənləşdirməyin vacibliyi. Tarixi təsvirin müqayisə, identikləşdirmə, izah etmə və sistemləşdirmə funksiyaları. Tarixi təsvirin dil ilə əlaqəsi. Obyekt dil, onun müşahidə və nəzəri dil, korrespondent (xüsusi əlaqə) dili növləri. Metadil və onun tarixi təsvirdə rolu. [1], [2], [3], [4], [5], [6], [12], [16].

**XIII mövzu. Konseptuallaşma və tarixizm (2 saat).**

Konseptual sxemlərin mahiyyəti və tarixi tədqiqatlarda rolu.

WPS Office ile Düzenle

Tarixi idrakda konseptuallaşmanın spesifik cəhətləri. Konseptuallaşmada tarixisizm metodoloji prinsipinə və tarixi zaman konsepsiyasına arxalanmağın zəruriliyi.

Tarixilik prinsipinin mahiyyəti və əsas inişaf mərhələləri. Tarixiliyin mexaniki və naturalist mərhələsi. Klassik alman fəlsəfəsinin (Hegelin) tarixisizmi. Tarixiliyə sistem kimi yanışılması. Tarixilik xalqların ruhunun inkişafının müəyyən mərhələsi kimi. Tarixin qanunauyğun və geridönməz xarakteri. XIX əsrin əvvəli və ortaları və əsas cəhətləri. Tarixi tədqiqatın empirikliyin və mənbələrin mötəbərliyi. Tarixi nəqletmənin tamlığının zəruriliyi. Tarixi reallığın bərpasında şəxsiyyətə mərkəzi yer verilməsi.

Tarixisizmin marksist mərhələsi və onun səciyyəvi cəhətləri. Tarix elmi, bəşəriyyətin qanunauğun inkişafı prosesini öyrənir. Cəmiyyətin inkişafının özünəməxsusluğu. Ictimai varlıq ilə ictimai şüurun münasibəti. Tarix idrakı, faktlar üzərində aparmağın vacibliyi. Obyektiv tarixi reallıqda məkan və zaman göstəricilərinin, səbəbiyyət və funksional əlaqələrin nəzərə almağın zəruriliyi.

K.Popperin antitarixizmi və onun əsas müddəaları. Tarixə siyasi və ictimai hadisələrin xronikası kimi yanaşılması. Cəmiyyəti bütöv sistem kimi dərk etməyin qeyri-mümkünlüyü ideyası. Tarixi qanunların inkişafın təsviri kimi mənalandırılması. Gələcəyi irəlicədən görməyin qeyri-mümkünlüyü ideyası. [1], [2], [3], [4], [5], [6], [19].

**XIV mövzu. Tarixi idrakın funksiyaları (4 saat).**

Tarixi idrakda dəyərləndirici-qiymətləndirici münasibətin mahiyyəti. Tarixi biliyin təbliğinin vasitəli xarakteri və onu şərtləndirəm amillər. Tarixi idrakda nihilist yanaşmanın əsassızlığı. Tarixi reallığın subyektlərin fəaliyyətindən ayrılmazlığı və ona dəyərləndirici münasibətin zəruriliyi.

Tarixi idrakın sosial yaddaş funksiyası. Tarixi idrak və xalqın mənlik şüurunun inkişafı. Mədəniyyətin və sivilizasiyanın tarixinin anlaşılmasında sosial yaddaşın rolu. Tarixi idrakda elmi və dəyərləndirici tərəflərin vəhdəti. Tarixi idrakın sosial yaddaş funksiyası və müasirlik.

Tarixi idrakın sosial tərbiyə funksiyası. A.Bakıxanov tarixi öyrənməyin əhəmiyyəti haqqında. Tarixi idrak ilə mənəviyyatın əlaqələrinin mürəkkəbliyi. Tarixci tərəfindən öyrəndiyi dövrün mənəvi mühüti və davranış normalarını bərpa etmənin zəruriliyi.

Dərk edən subyektin tarixi hadisələri və prosesləri qiymətləndirməsinin mürəkkəbliyi, bu prosesdə maraqların və tədqiqatçının subyektiv göstəricilərinin təsiri. Müasir şəraitdə tarixi idrakın sosial tərbiyə funksiyasının rolunun artması.

Tarixi idrakın estetik funksiyası. Tarixi bilikdə praktiki mənəvi estetik tərəflərin vəhdəti. Keçmiş tarixin izlərinin mədəni və estetik dəyərliliyi problemi. Tarixi əsərlərin və abidələrin estetik keyfiyyətlələrinin (dilinin maraqlılığı, emosionnallığı, obrazlarının təsvirliliyi və s.) əhəmiyyəti. Tarixdə gözəllik, ümumbəşərinin ifadəsi kimi, onun xeyirxahlıq ilə vəhdəti. Tarixi proseslərin faciəvi komik və dramatik tərəfləri.

Tarixi idrakın proqnozlaşdırıcı funksiyası. Öngörmə, sosiohumanitar biliyin zəruri tərəfi kimi. Tarixi idrakda proqnozlaşdırıcı funksiyanın çətinliyi. Ümumsosioloji və konkret tarixi qanunların vəhdətdə götürülməsi, proqnozlşadırmanın əsası kimi. Tarixi proqnozların retrospektiv (keçmişə yönələn) və perspektiv (gələcəyə yönələn) növləri. [1], [2], [3], [4], [5], [6], [20],

WPS Office ile Düzenle

[21].

## Seminar məşğələlərinin planı

**I Mövzu: Tarixi şüur və tarixi idrak fənninin predmeti və metodoloji əsasları (2 saat)**

1. "Tarixi şüur və tarixi idrak" fənnini öyrənməyin əhəmiyyəti.
2. Tarixi şüur və tarixi idrak fənninin predmeti.
3. Tarixi şüur və tarixi idrak fənnini öyrənməyin metodoloji prinsipləri.

**Ədəbiyyat**


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Ясперс К. Истоки истории и ее цель // Ясперс К. Смысл и назначение истории. М.: Республика, 1994.

8. Аронштейн А.П., Данилевский И.И. Вопросы теории и методики исторического исследования. М., 1986.


WPS Office ile Düzenle

**II Mövzu: Tarixi şüurun statusu və formalaşma mərhələləri (2 saat)**

1. Tarixi şüurun statusu.
2. Tarixi şüurun xüsusiyyətləri.
3. Tarixi şüurun formalaşması və inkişafının əsas mərhələləri.

**Ədəbiyyat**


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Самиев А. Генезис и развитие исторического сознания. Душанбе: Донши, 1988.


**III Mövzu: Tarixi reallıq, tarixi şüur və xalqın mənlik şüuru (2 saat)**

1. Tarixi reallıq və onun təbiət reallığı ilə münasibəti.
2. Keçmişin indiki dövrdə davamı problemi.
3. Tarixi şüur və mənlik şüuru.

**Ədəbiyyat**


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Останина О. А. Проблема субъективного в историческом познании. — М.: Прометей, 1997.


**IV Mövzu: Tarixi idrakın xüsusiyyətləri. Tarixi idrakda həqiqət.**

1. Tarixi idrakın xüsusiyyətləri.

WPS Office ile Düzenle

2. Tarixdə təkrarlanma və təkcə ilə ümuminin münasibəti.
3. Tarixi idrakda həqiqət problemi.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Проблемы познания и моделирования социальных явлений. Томск: Изд-во ТГУ, 1979.

8. Коршунов А. М., Шаповалов В. Д. Творчество и отражение в историческом познании. М.: Изд-во МГУ, 1984.

**V Mövzu: Tarixi idrakın strukturu**

1. Biliklərin təsnifatı və tipologiyası.
2. Tarixi biliyin tipologiyasının əsasları.
3. Tarixi tədqiqatın strukturu.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Коршунов А. М., Шаповалов В. Д. Творчество и отражение в историческом познании. М.: Изд-во МГУ, 1984.

8. Творчество и социальное познание. М., 1992.

**VI Mövzu: Tarixi idrakda sistemli yanaşma (2 saat)**

1. Tarixə sistemli yanaşmanın nəzəri əsasları.
2. Tarixi idrakda sistemli yanaşmanın özünəməxsusluğu.
3. Tarixi idrakda tətbiq olunan əsas sistem strukturları.

**Ədəbiyyat**

WPS Office ile Düzenle

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Санцевич А. В. Методика исторического исследования. Киев: Наукова думка, 1990.

8. Французова Н. П. Исторический метод в научном познании (вопросы методологии и логики исторического исследования). М.: Мысль, 1972.

**VII Mövzu: Tarixi idrakda varislik prinsipi (2 saat)**

1. Varislik, yeni ilə köhnənin əlaqəsi kimi.
2. Tarixi idrakda  keçmişin bərpası və onun çətinlikləri.
3. Tarixi idrakda varisliyin əsas formaları.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Иванов Г. М. Исторический источник и историческое познание. — Томск: Изд-во ТГУ, 1973.

**VIII Mövzu: Tarixi idrakda məkan və zaman**

1. Vahid tarixi məkanın formalaşması.
2. Tarixi məkanın iqtisadi və siyasi məkan ilə münasibəti.
3. Tarixi zaman və onun səciyyəvi cəhətləri.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

WPS Office ile Düzenle

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Лой А. Н. Социально-историческое содержание категорий «время» и «пространство». Киев: Наукова думка, 1978.

**IX Mövzu: Tarixi prosesdə səbəbiyyət, zərurət və təsadüf (2 saat)**

1. Tarixdə səbəbiyyət və qanunauyğunluq.
2. Tarixi səbəbiyyətin çoxmənalılığı və çoxvariantlılığı.
3. Tarixi zərurət, onun təsadüf ilə münasibəti.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Самиев А. Генезис и развитие исторического сознания. Душанбе: Донши, 1988.- 120 с

**X Mövzu: Tarixi idrakda mənbələrin yeri və rolu (2 saat)**

1. Tarixi mənbə anlayışı.
2. Tarixi mənbələrin təsnifatı.
3. Tarixi mənbələrin funksiyaları və istifadə məsələləri.

**Ədəbiyyat**

1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат,

WPS Office ile Düzenle

1991.

7. Иванов Г.М. Исторический источник и историческое познание. Томск, 1973.

## XI Mövzu: Tarixi fakt və tarixi idrak (2 saat)

1. Tarixi fakt anlayışı.
2. Tarixi faktların epistemoloji və metodoloji təsnifatı.
3. Tarixi fakt tarixi idrakın zəruri tərəfi kimi.

### Ədəbiyyat


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. А.В. Леопа. Трансформация исторического сознания в переходный период истории. Конец XX – начало XXI века. Красноярск, 2012.


## XII Mövzu: Tarixin empirik dərk olunması (2 saat)

1. Tarixi təsvir anlayışı.
2. Tarixi təsvirin növləri.
3. Tarixi təsvirin idraki funksiyaları.

### Ədəbiyyat


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Иванов Г. М., Коршунов А. М., Петров Ю. В. Методологические проблемы исторического познания. М.: Высшая школа, 1981.

8. Козин Н. Г. Познание и историческая наука. — Саратов: Изд-во Саратовского университета, 1980.


WPS Office ile Düzenle

## XIII Mövzu: Konseptuallaşma və tarixisizm (2 saat)

1. Konseptuallaşma anlayışının mahiyyəti.
2. Tarixisizm və onun inkişaf mərhələləri.
3. Popperin tarix haqqında baxışları.

### Ədəbiyyat


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Копалов В. И. Историзм как принцип социально-философского исследования. — Свердловск: Изд-во Уральского университета, 1991.

8. Трельч Э. Историзм и его проблемы. Логическая проблема философии истории. М.: Юрист, 1994.


## XIV Mövzu: Tarixi idrakın funksiyaları (4 saat)

### 1-ci məşğələ

1. Tarixi idrakda sosial-dəyərləndirici münasibət problemi.
2. Tarixi biliyin tətbiqinin vasitəli xarakteri.
3. Tarixi idrakın sosial yaddaş funksiyası.

### Ədəbiyyat


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

7. Уйбо А. С. Теория и историческое познание. Таллин: Ээсти раамат, 1988.

8. Антипов Г.А. Историческое прошлое и пути его познания. Новосибирск, 1997.


WPS Office ile Düzenle

**2-ci məşğələ**

1. Tarixi idrakın sosial tərbiyə funksiyası.
2. Tarixi idrakın estetik funksiyası.
3. Tarixi idrakın proqnozlaşdırıcı funksiyası.

**Ədəbiyyat**


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.

2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.

3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.

4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.


**İstifadə olunmuş ədəbiyyat**

Əsas ədəbiyyat


1. Babayev M.Ə. Biz tarixi nə üçün öyrənirik. Bakı Universiteti nəşriyyatı. 1985.
2. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2013.
3. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Ali məktəblər üçün dərslik. Bakı, Turan nəşriyyat evi, 2012.
4. Бабаев М.А. Связь времен: настоящее, прошлое, будущее. Баку, Азернешр, 1993.


WPS Office ile Düzenle

5. Ракитов А.И. Историческое познание. М., Наука, 1982.

6. Келл В.Ж. Ковальзон Теория и история. М., Политиздат, 1991.

Əlavə ədəbiyyat

7. Ясперс К. Истоки истории и ее цель // Ясперс К. Смысл и назначение истории. М.: Республика, 1994.

8. Аронштейн А.П., Данилевский И.И. Вопросы теории и методики исторического исследования. М., 1986.

9. Самиев А. Генезис и развитие исторического сознания. Душанбе: Донши, 1988.

10. Останина О. А. Проблема субъективного в историческом познании. — М.: Прометей, 1997.

11. Проблемы познания и моделирования социальных явлений. Томск: Изд-во ТГУ, 1979.

12. Коршунов А. М., Шаповалов В. Д. Творчество и отражение в историческом познании. М.: Изд-во МГУ, 1984.

13. Творчество и социальное познание. М., 1992.

14. Санцевич А. В. Методика исторического исследования. Киев: Наукова думка, 1990.

15. Французова Н. П. Исторический метод в научном познании (вопросы методологии и логики исторического исследования). М.: Мысль, 1972.

16. Иванов Г. М. Исторический источник и историческое познание. — Томск: Изд-во ТГУ, 1973.

17. Лой А. Н. Социально-историческое содержание категорий «время» и «пространство». Киев: Наукова думка, 1978.

18. А.В. Леопа. Трансформация исторического сознания в переходный период истории. Конец XX – начало XXI века. Красноярск, 2012.

19. Копалов В. И. Историзм как принцип социально-философского исследования. — Свердловск: Изд-во Уральского университета, 1991.

20. Уйбо А. С. Теория и историческое познание. Таллин: Эсти раамат, 1988.

21. Антипов Г.А. Историческое прошлое и пути его познания. Новосибирск, 1997.

WPS Office ile Düzenle